**“Azərbaycan Standartlaşdırma İnstitutu” publik hüquqi şəxsin İdarəetmə sistemlərinin sertifikatlaşdırılması orqanı**

**Təsdiq edirəm:**
**“Azərbaycan Standartlaşdırma İnstitutu” publik hüquqi şəxsin Təlim-tədris Mərkəzi İdarəetmə sistemlərinin və personalın sertifikatlaşdırılması orqanının direktoru**

**__________ S.Q.Əliyev**

**“20” “06” 2017-ci il**

# “Sertifikatın dayandırılması,ləğv edilməsi və ya Sertifikatlaşdırma sahəsinin məhdudlaşdırılması üçün” PROSEDUR

**İşlədi __________ H.R.Ağamalıyev**

**“20” “06” 2017-ci il**

**2017**

# 1. Ümumi müddəalar

**1.1.** Bu prosedur sertifikatın qüvvədə olmasının dayandırılması, ləğv edilməsi və ya sertifikatlaşdırma sahəsinin məhdudlaşdırılması üçün qaydaları müəyyən edir.

# 2. Normativ istinadlar

- İSO/İEC 17021:2015 "Uyğunluğun qiymətləndirilməsi. İdarəetmə sistemlərinin auditini keçirən və sertifikatlaşdırılmasını aparan orqanlara olan tələblər" .

# 3. Məsuliyyət

**3.1. Sertifikatlaşdırma orqanının rəhbəri**:

- Sertifikatın dayandırılması, ləvğ edilməsi və ya sertifikatlaşdırma sahəsinin məhdudlaşdırılması haqqında qərarın qəbulu.

**3.2. Auditor qrupunun rəhbəri**:

- Auditlərin və inspeksiya nəzarətinin obyektiv və qərəzsiz yerinə yetirilməsini təmin etmək.

# 4. Uyğunluq sertifikatının dayandırılması, ləğv edilməsi və ya sertifikatlaşdırma sahəsinin məhdudlaşdırılması

SO aşağıda göstərilən hallarda sertifikatın qüvvədə olmasını dayandıra bilər:

- sertifikatlaşdırılmış təşkilat müntəzəm olaraq və ya ciddi şəkildə idarəetmə sisteminin tələblərini pozarsa;
- sertifikatlaşdırılmış Keyfiyyət İdarəetmə Sisteminin müəyyən olunmuş tələblərə uyğun olmaması;
- Sertifikatlaşdırma üzrə orqana təqdim edilən sənədlər və materiallarda saxtakarlıq faktları müəyyən olunarsa;
- sertifikatlaşdırılmış təşkilat Keyfiyyəti İdarəetmə Sisteminin müəyyən olunmuş dövri inspeksiyasının və ya yenidən sertifikatlaşdırılması auditinin keçirilməsinə qarşı çıxarsa (maneə törədərsə) və ya etiraz edərsə;
- sertifikatlaşdırılmış təşkilat özü könüllü şəkildə sertifikatlaşdırma fəaliyyətinin dayandırılması üçün müraciət edərsə;
- sertifikatlaşdırılmış təşkilat tətbiq etdiyi idarəetmə sistemində edilən əsaslı dəyişikliklər haqqında Sertifikatlaşdırma Orqanına məlumat verməyibsə.

Sertifikatın qüvvədə olmasının dayandırılması qərarının qəbul edilməsi ilə eyni vaxtda Sertifikatlaşdırma üzrə orqan sertifikat sahibinə korreksiyaedici tədbirin keçirilməsi üçün müddət təyin edir. Təyin edilmiş müddət 3 aydan artıq olmamalıdır.

Uyğunluq sertifikatının qüvvədə olmasının dayandırılması haqqında uyğunluq sertifikatının sahibi aşağıdakıları etməyə borcludur:

1.Uyğunluq nişanının istifadəsini dayandırmaq.

2.SO tərəfindən müəyyən olunmuş müddət ərzində uyğunsuzluğu aradan qaldırmaq.

3.SO-nu korreksiyaedici tədbirlərin yerinə yetirilməsi barədə yazılı məlumatlandırmaq.

Sertifikat sahibi uyğunsuzluğun aradan qaldırılması üzrə korreksiyaedici tədbirləri yerinə yetirdikdən sonra uyğunluq sertifikatının qüvvədə olması bərpa edilir. Sertifikatın dayandırılması müddəti 6 aydan çox olmamalıdır.

Sifarişçi təşkilat tərəfindən sertifikatlaşdırma sahəsi üzrə sertifikatlaşdırma tələbləri mütəmadi olaraq yerinə yetirilmədiyi hallarda sertifikatlaşdırma orqanı tərəfindən sertifikatlaşdırma sahəsi məhdudlaşdırılır.

Sertifikat sahibi tərəfindən tətbiq edilən korreksiyaedici tədbirlər təyin edilmiş müddətdə və ya düzgün yerinə yetirilmədiyi hallarda Sertifikatlaşdırma Orqanı uyğunluq sertifikatının ləgv edilməsi və ya sertifikatlaşdırma sahəsinin məhdudlaşdırılması haqqında qərar qəbul edir.

Sertifikatın ləğv edilməsi onun reyestrdən çıxarıldığı tarixdən etibarən qüvvəyə minir və bu barədə sifarişçi hərtərəfli məlumatlandırılır və yekun qərarı alır.

Hər hansı tərəfin sorğusuna əsasən Sertifikatlaşdırma orqanı sifarişçinin idarəetmə sisteminin sertifikatlaşdırılması haqqında dəqiq məlumatı, yəni sertifikatın qüvvədə olmasının dayandırılması, ləvğ edilməsi və ya sertifikatlaşdırma sahəsinin məhdudlaşdırılması haqqında məlumatı təqdim etməlidir.

## 5. Sənədlərin saxlanılması

Sertifikatın qüvvədə olmasının dayandırılması, ləğv edilməsi və ya sertifikatlaşdırma sahəsinin məhdudlaşdırılması ilə bağlı qeydlər 5 (beş) il müddətində Sertifikatlaşdırma Orqanında saxlanılmalıdır**.**